# “Vətən daşı”

Bu gün respublikamızın ictimai-siyasi həyatında qadınların rolu yüksəkdir. Bu məsələdə hətta ən qabaqcıl Avropa ölkəsi ilə rəqabət edə bilərik. Bizim bütün sahələrdəki uğurlarımızda Azərbaycan qadınının iştirakı vardır. Yuxarıda dediyimiz kimi tarixən belə olub, belə də olacaq. Biz qeyrətli Azərbaycan qadınları ilə fəxr edirik.

Kitabın girişində poemadan öncə redaktor, filologiya elmləri doktoru, professor Sənan Əlincənin və filologiya elmləri doktoru Paşa Kərimovun əsərin bəzi məziyyətləri haqqında fikirləri əksini tapmışdır, bunların əsasında bir sıra məqamları da oxucularımıza təqdim edirik.

Poemada həmin çətin dövrdə Türkiyə-Azərbaycan həmrəyliyinə də münasibət bildirilmiş və o ağır döyüşlər zamanı Türkiyənin Azərbaycanın yanında olduğu oxucuların diqqətinə çatdırılmışdır:

*Ən başda Türkiyə yardıma gəlir,*
*Böyükdən kiçiyə hamı dillənir.*
*Anılır tarixi müqavilələr,*
*Düşmənin suları bundan lillənir.*

Döyüş meydanında düşmənə ağır zərbələr vuraraq heykələ dönmüş - daşlaşmış və yağı qarşısını sanki bir Dağ, Qaya kimi kəsmiş Qəhrəmanın obrazı əsərin sonuna yaxın çox təsirli şəkildə belə təqdim olunur:

*Qürurun heykəli indi ayaqda.*
*Onun sağ əlində, ovcunda bir daş.*
*Sıxılmış barmaqlar qılınc tutmuş tək.*
*Bir Heykəl, bir Zabit - böyük Vətəndaş.*

Təkrar olaraq bir daha xatırladım ki, əsərə nikbin bir ruh hakimdir, müəllif bunu əsərin sonunda belə vurğulayır:

*Nikbin yaşamağa vardır haqqımız,*
*Olsun nəsibimiz nurlu səhərlər!*
*Qələbə marşını biz yazacağıq,*
*Hələ qarşıdadır böyük zəfərlər!*

Nikbinliyi gücləndirən digər məqam isə qəhrəman valideynlərin yolunu davam etdirmək əzmində olan gənc nəslin yetişməsidir. Belə ki, Qəhrəmanın oğlu -

*Bilir hərb işini atası kimi,*
*Məqsədi Vətənə xidmət etməkdir.*
*Əgər lazım olsa, canından keçib*
*İgid ərənlər tək bir yol getməkdir.*

*Düşmən xoşluq ilə azad etməzsə,*
*Ali Baş Komandan əmr edən anda*




*İgid əsgərlərin şücaətilə*
*Hamı arxayınca bir nəfəs alır.*

Müəllif poemanın yekununda qeyd edir:

*Saysız vəsf etməli igidlərimiz,*
*Daim qəlblərdədir, anılır hər an.*

**Azər Hacıbəylinin poeması şəhidlərimizin xatirəsinə ucaldılmış abidədir**

Azər Hacıbəylinin ”Vətən daşı” poeması şəhidlərimizin xatirəsinə ucaldılmış ədəbi abidə, şair-vətəndaş mövqeyinin təcəssümüdür. Əsər Azərbaycanın şəhidlik məktəbinin davamçılarının xatirəsinə ucaldılmış ədəbi abidə, şair-vətəndaş mövqeyinin təcəssümüdür.

İlk növbədə əsərin qəhrəmanı Dədə Qorqud igidlərini, Koroğlunu, Qaçaq Nəbini və yüzlərlə digər qəhrəman oğullarımızı onların özləri kimi ləyaqətli, cəsur, vəfalı Azərbaycan qadınları olmadan təsəvvür edə bilmərik. Bizim əsərin qəhrəmanının xanımı Şəfa da, igid anasının obrazı da bu məsələni tamamlayır:

*Çox-çox məmləkətdən fərqlənirik biz.*
*Ataraq bəzəyi, altunları da*
*Daim oğullarla birgə döyüşüb*
*Vətənin qeyrətli xatunları da.*

*O, addım atacaq ön cərgələrdə -*
*Doğma Qarabağa yürüş olanda.*

A.Hacıbəyli əsəri yaratmaqda əsas məqsədlərindən biri barədə belə bildirir:

*Xalqa tanıtmaqçün qəhrəmanları,*
*Borcumuz bunları nəzmə çəkməkdir!*
*Gənclərin qəlbində, könül bağında*
*Vətən sevgisindən ağac əkməkdir!*

Sədərəkin hazırkı durumu da özünəməxsus tərzdə şərh olunur:

*İndi yenilənib hər bir nöqtəsi,*
*Çətin günlərimiz qalıb arxada.*
*Bircə dəyişməyib Vətən sevgisi,*
*Cəsur ürəklər də həmin qaydada.*

Dövlətimizin ordu quruculuğu sahəsində gördüyü işlər poemanın sonunda poetik dillə belə vurğulanır:

*Bu gün Qəhrəmanım əbədiyyətdə...*
*Düşmən ordumuzdan quş tək tük salır.*

*Mən yalnız birindən danışdım Sizə,*
*Başqa igidlərdən yazılar dastan.*

Bu arada qeyd edim ki, ”Vətən daşı”nın dili axıcıdır, oxunaqlıdır, sadədir. Hiss olunur ki, müəllif yabançı kəlmələr, anlaşılmaz ifadələrdən istifadədən maksimum çəkinmişdir. Poema oxucuya nikbin əhval-ruhiyyə verir, döyüşkən ruh və qətiyyət təlqin edir, əsgər marşı kimi münəzzəmdir.

Hər bir azərbaycanlı, xüsusən də gənc nəsil üçün böyük töhfə olan ”Vətən daşı” poeması inanırıq ki, qəlblərinizdə layiqli yerini tutacaqdır. Bu nəcib işində Azər Hacıbəyliyə yeni yaradıcılıq uğurları arzulayırıq.

*Dəyərli oxucularımızın diqqətinə Qarabağ müharibəsinin veteranı, ehtiyatda olan polkovnik Sücəddin Abdullayevin poemanın müəllifi ilə söhbətini olduğu kimi təqdim edirik.*

**- İlk sualım poemanın adı ilə bağlıdır. Poemanı ”Vətən daşı” adlandırmağınızın bizə məlum olmayan tərəfləri haqqında nə deyə bilərsiniz?**

- Gəlin, poemanın özünün ərsəyə gəlməsi barədə danışım, Son illərdə qarı düşmənin təxribatlarının qarşısının alınması istiqamətində ordumuzun uğurlu fəaliyyəti əksər soydaşlarımız, hamı kimi məni də ruhlandırmışdır. Xüsusilə də, bir dönüş nöqtəsi sayılacaq məqamı - 2014-cü ildə düşmən helikopterinin bizim ərazilər üzərində uçuş keçirərkən vurulmasını vurğulamaq istərdim, bunu ”Azərbaycan ordusu” şeirində əks etdirmişəm və poemanın sonunda təqdim olunur. O zaman qərara gəldim ki, xalqımızın müasir dövr qəhrəmanlıq tarixini əks etdirən hərbi-vətənpər-vərlik mövzusunda əsərlər yazmağa başlayım. Beləliklə, ”Azərbaycan ordusu”, ”Gənclərə” şeirlərini yazdım, sonra ”Doxsan dördün payızı” poemasını qələmə aldım.

Qeyd edim ki, mən gənclərlə çox təmasda oluram, onlarla ünsiyyət prosesində vətənpərvərlik mövzusunda söhbətlərə yer ayırıram. Çünki, doğma torpaqlarımızın işğaldan azad olunması məsələsi məni daim düşündürür. Elə bu düşüncələrlə yaşayanda, görünür ki, fikirlər də, yaradılan əsərlər də bu mövzularda olur. Bu da təbiidir. Gənclərlə söhbətlərimdə tez-tez belə fikirlər işlədirəm: ”Torpağı çox sevsəniz, hər Vətən daşı dayağınız olar”; ”Vətəni çox sevsəniz, onda Vətən torpağı da Sizə güc, qüvvət verər”.

Gənc dostlarımdan biri ilə əsərin yazılması ərəfəsində tez-tez 1990-93-cü illərdə Naxçıvanın erməni təcavüzkarlarının hücumuna məruz qalması, Sədərək döyüşləri haqqında söhbətlərimiz olurdu. Bundan başqa, poemanı yazmaq ərəfəsində elə bil ki, daxilimdəki bir səsin diktəsi ilə Vətən aşiqi Məmməd Arazın ”Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı” fikirlərini biixtiyar, ardıcıl və dodaqaltı təkrarlayırdım. Elə-beləcə qəlbimin səsinə qulaq asa-asa, bu misraları ürəyimdə deyə-deyə çalışdım, qısa müddətdə poema yazıldı.

**- ”Vətən daşı” deyərkən, yəni ”Düşmən qarşısını Qaya olub kəsmiş dağa - ”Vətən daşı”na dönmüş Qəhrəman nəzərdə tutulur, yoxsa dil açıb insanla danışan, ”igidə yol göstərən”, düşmənə keçmişdə və indi ağır zərbələr vurmuş, ”bir vaxt babaların silahı olmuş”, ”Ata yadigarı”na çevrilmiş ”Vətən daşı”?**

- Hər ikisi. Bununla da təbii şəkildə maraqlı bir ikilik formalaşmışdır. Bu həm də oxucunun ixtiyarına verilir, özü qərar versin.

**- İstərdim ki, poemada Ulu Öndər Heydər Əliyev ilə bağlı məqamlar barədə daha ətraflı danışasınız.**

- İctimai həyatımızın elə bir sahəsi yoxdur ki, orada Ulu Öndərin xidməti olmasın. Azərbaycan, Vətən, vətənpərvərlik mövzularından danışanda gözlərimiz önündə Ulu Öndərin işıqlı siması canlanır. Vətəni sevməyin də, Vətənə xidmət etməyin də ən gözəl, bariz nümunəsini biz Heydər Əliyevin şəxsiyyətində, timsalında görmüşük. Bu dahi şəxsiyyət haqqında nə qədər danışsaq, nə qədər yazsaq da, o böyüklük qarşısında kiçikliyimizi dərk edəcəyik. Bunu və Ulu Öndər barəsində söz deməyin məsuliyyətini anlayaraq, mənəvi babamıza olan sonsuz ehtiramımı poemada göstərmişəm. Əsərdə Sədərək döyüşlərindən danışılır. Zəfər tariximiz olan Sədərək döyüşlərini yad etmək lazımdır. Çünki bir vaxt Sədərək uğrunda döyüşlərdə həm düşmənlə üz-üzə hərbi əməliyyatlarda, həm də psixoloji və informasiya savaşında Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında qalib çıxmış Azərbaycan mütləq işğal altında olan əzəli torpaqlarımızı azad edəcəkdir.

**- ”Vətən daşı”nda Siz süjet xəttini bir qəhrəman üzərində qurub, bədii şəkildə onun iç dünyasını açmağa çalışmısınız...**

- Bu yaxınlarda Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr edilmiş ”Addım at!” adlı poema geniş oxucu kütləsinə təqdim ediləcəkdir. Qabağa qaçmaq istəməzdim. Amma deyim ki, bu sualın cavabını orada poetik şəkildə vermişəm. Orada qeyd etmişəm ki, mən ruhən qəhrəmanlara yaxınam, sanki qəhrəmanlarla onların yaşadıqlarını birgə yaşamışam, hiss etmişəm.

Təsisçi: Sona VƏLİYEVA

Baş redaktor: İlham QULİYEV

Ünvan: Bakı ş. Mətbuat prospekti, 529-cu məhəllə, 25-ci bina
Telefon: 510-61-92, “432-88-45,
Faks: 510-61-93
E-mail: kaspiqazeti@gmail.com

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib. Lisenziya №022264, Qeydiyyat №V 64

Qəzet redaksiyanın kompyuter mərkəzində yığılıb, səhifələnib. Bazar və bazar ertəsindən başqa hər gün çıxır.

Tiraj: 5000

*Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər*